*Hüseynova Nigar Rəhman qızı,*
*müəllim, doktorant,*
*Bakı Biznes Universiteti,*
*Email: nigarrahmanovna@gmail.com*

# YEYİNTİ SƏNAYESİ MƏHSULLARININ İSTEHSALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ

XXI əsrin 4-cü sosial inqilabı adlanan iqtisadiyyatın rəqəmsallaşması prosesi bir çox sahələrdə öz müsbət təsirini göstərməyə davam edir. Bu proses bütün dünyanın sosial-iqtisadi həyatını köklü dəyişərək hər bir sahədə yeni inkişaf üfüqləri təqdim etməkdədir. Prezident İlham Əliyev də daim öz çıxışlarında milli iqtisadiyyatın hər bir sahəsində innovativ üsullara söykənən, müasir sosial-iqtisadi mexanizmlərin tətbiq edilməsini ön plana çəkmişdir. İqtisadiyyatın rəqəmsallaşması prosesi hər bir sahə kimi qeyri-neft sektoru və onun əsas bölməsi olan yeyinti sənayesinə də öz müsbət təsirini göstərmiş, bu sahədə məhsulların artırılmasının yeni istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir.

Yeyinti sənayesi ölkə iqtisadiyyatının intensiv inkişaf etməsində, iqtisadi səmərəliliyin yüksəldilməsində, istehsal potensialının artırılmasında mühüm rol oynayır. Yeyinti sənayesi müəssisələrinin fəaliyyətinin ən mühüm göstəricilərindən biri istehsal edilən məhsulların həcmidir. Azərbaycanın yeyinti sənayesi müəssisələrinin fəaliyyətini xarakterizə edən əsas göstəricilər müəssisələrin sayı, yeyinti sənayesinin ÜDM-da və sənayedə payı, istehsal satış həcmi və s.-dir. 2020-ci ildə yeyinti sənayesinin respublikanın sənaye məhsulunun dəyərində 2015-ci ildəki 8,8 faizdən 2020-ci ildə 10,4

faizə, 1,0 faizdən 2,5 faizə çatmışdır. (9.s 119) Çalışan fəal əhalinin müəyyən hissəsi yeyinti sənayesində çalışır. Yeyinti sənayesi özündə qida məhsulları, içki istehsalı məmulatlarının istehsalı ilə məşğul olan ərzaq təhlükəsizliyini təmin edilməsində mühüm rol oynayan sosial iqtisadi kompleksdir. (4.s.127)

Statistik məlumatların təhlili göstərir ki, yeyinti məhsulu istehsalı hər il artır. Bütün bunlar bu sahənin bazarın böyük hissəsinin ehtiyaclarını təmin etdiyini sübut edir. Bu kimi halların mövcudluğu yeyinti məhsulları sənayesində yeni texnologiyaların tətbiq edilməsini şərtləndirir, bu sahəyə investisiyaların cəlb olunması prosesini sürətləndirilməsini tələb edir. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə (06.12.2016) göstərilir ki, "İqtisadiyyatın şaxələndirilməsi" qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsini tələb edir" (3.s.54).

Respublikada həyata keçirilən islahatlar özəlləşdirmə prosesləri bu sahədə olan inhisarçılığın ləğv edilməsinə, emal məhsulları istehsalına, qoyulan investisiyaların artımına şərait yaratdı. Yeni mülkiyyət münasibətləri əsasında formalaşan müəssisələrə daxili və xarici investisiyalar qoyuluşu artmağa başladı, 1996-cı ildən bəri aqrar sahədə mövcud olan 8 tütün fabriki, 16 çay, 17 şərab, 22 pambıq təmizləmə, 47 konserv zavodu, 108 üzümün ilkin emalı müəssisəsi, 295 xidmət müəssisəsi və təşkilatları özəlləşdirildi (8.s.400).

Görülən məqsədyönlü tədbirlər əsas emal məhsulları istehsalının xeyli artırılmasına imkan vermişdir. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

***Cədvəl 1.***

**Azərbaycanda əsas növ emal məhsulları istehsalı (min ton) (6.32-33)**

| Məhsullar | 2005 | 2015 | 2020 | 2020-ci ildə 2015-ci ilə nisbətən, dəfə |
|---|---|---|---|---|
| Kolbasa məmulatı | 1,2 | 5,4 | 25,8 | 21,5 |
| Süd | 494 | 857,4 | 946,4 | 1,9 |
| Pendir və kəsmik | 33,5 | 48,5 | 53,5 | 1,6 |
| Kərə yağı | 14,2 | 23,9 | 25,8 | 1,8 |
| Tərəvəz və meyvə konservləri (mln. banka) | 23,2 | 147,9 | 186,7 | 8,1 |
| Günəbaxan yağı | 8,8 | 106,7 | 75,1 | 8,5 |
| Marqarin | 17,8 | 24,9 | 49,9 | 2,8 |
| Mineral sular (min dal) | 1160,2 | 8177,4 | 39861,4 | 34,3 |
| Alkoqolsuz içkilər | 13361 | 24884 | 28619,3 | 2,1 |
| Makaron məmulatı | 0,3 | 9,2 | 11,8 | 39,3 |
| Şampan şərabı | 61,8 | 4,5 | 4,1 | 0,6 |
| Araq (min dal) | 484,3 | 770,7 | 1718,7 | 3,5 |
| Üzüm şərabı (min dal) | 400,5 | 1035 | 895,0 | 2,2 |
| Brendi (konyak) (min dal) | 17,5 | 3,8 | 50,8 | 2,9 |
| Səməni pivəsi | 2490 | 4196 | 5466,5 | 2,2 |
| Qənd rafinad | 3,6 | 335,6 | 246,5 | 68,4 |
| Təbii çay | 7,5 | 6,2 | 10,6 | 1,4 |
| Fermentləşdirilmiş tütün | 2,6 | 1,7 | 4,4 | 1,7 |

Cədvəldən görünür ki, 2005-2020-ci illərdə heyvandarlıq məhsulu emalının istehalı xeyli artmışdır və burada inkişaf meyli mövcuddur. Tərəvəz və meyvə emalı məhsulları, mineral sular, alkoqolsuz içkilər, çörək və çörək-bulka məmulatları, araq, üzüm şərabı, pivə, qənd istehsalında artım dinamikası müşahidə olunur.

Yaranmış əlverişli şəraiti nəzərə alaraq, respublikanın aqrar sahəsi ilə yeyinti sənayesinin əlaqəli inkişafının təmin edilməsi məqsədilə aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1) Aqrar emal müəssisələrinin, xüsusən ət, süd, meyvə, tərəvəz emalı şəbəkəsinin yaradılması və şərabçılığın inkişaf etdirilməsi;

2) Regionlarda anbarlar, soyuducular və s. Infrastrukturların yaxşılaşdırılması, sosial obyektlərin daha da inkişaf etdirilməsi;

3) Ərzaq təchizatında və ixracda rolu olan rəqabət qabiliyyətli müəssisələrlə sistemli və məqsədyönlü tədbirlər, xüsusilə də idarəetmə tədbirlərinin gücləndirilməsi;

4) Kənd təsərrüfatı məhsullarını istehsal edən və emalla məşğul olan yerlərdə məhsulların tədarükü üzrə qurumların marketinq şəbəkələri və topdansatış bazarının yaradılması;

5) İşğaldan azad edilmiş ərazilərdə yeyinti məhsulları istehsalı müəssisələri və infrastrukturların müasir tələblər baxımından yaradılmasına üstünlük verilməsi və s.

Bildiyimiz kimi, 2020-ci ildə II Qarabağ müharibəsində Azərbaycan dövləti öz torpaqlarını işğaldan azad etdi. Hal-hazırda mühüm strateji əhəmiyyətə malik olan, işğaldan azad edilən ərazilərin sosial-iqtisadi inkişafı və bərpa işlərinin görülməsi ölkə iqtisadiyyatının sonrakı 10 ildə sosial-iqtisadi inkişafının istiqamətlərindən biridir. Bu istiqamətdə ölkə prezidentinin tapşırığı ilə çox güclü işlərə başlanılmışdır. Bu ərazilərdə digər sahələr kimi yeyinti sənayesinin inkişafı çox mühüm əhəmiyyət kəsb edir. Hər kəsə məlumdur ki, işğaldan azad olunan Ağdam rayonunda və Şuşada ilk açılan müəssisə məhz yeyinti müəssisəsi olan Ağdam Çörək zavodu olmuşdur.

İşğaldan azad olunan Qarabağ və ətraf rayonlarında yeyinti sənayesinin inkişafı üçün əvvəlcə resurs potensiallar müəyyənləşdirilməlidir. Burada həm ümumi dövlətin, həm də o ərazinin iqtisadi potensialı qiymətləndirilməlidir. Daha sonra təhlükəsizlik təmin olunmalıdır. Nəzərə almaq lazımdır ki, 300 km uzunluğunda və 5 km dərinliyində minalanmış ərazilər mövcuddur və torpaqlar minadan təmizlənməlidir. Digər tərəfdən hesab edirik ki, növbəti istiqamət çirklənmə probleminin aradan qaldırılmasıdır. Çünki yeyinti məhsullarının istehsalı üçün lazım olan münbit torpaq və sular hal-hazırda çirkli olduğu üçün yararsız haldadır.

Məlumdur ki, kənd təsərrüfatı məhsulları yeyinti sənayesinin əsas xammalını təşkil edir. Beləliklə, hesab edirik ki, bu ərazilərdə yeyinti sənayesini inkişaf etdirmək üçün, kənd təsərrüfatında işlər 2 mərhələ üzrə həyata keçirilə bilər. İlk növbədə məlumdur ki, sovet dövründən qalan fəaliyyət sahələri var. Məsələn, ölkənin daim taxıl anbarı olan, sonra pambıqçılıq, daha sonra isə üzümçülük anbarı olan Füzuli rayonu kimi digər rayonların da iqtisadi potensialı qiymətləndirilməlidir. İkinci növbədə isə, innovativ metodlar ilə faydalı ənənəvi metodların qarşılıqlı istifadəsi ilə müasir tələbata müvafiq infrastruktur yaratmaq mümkün ola bilər.

Beləliklə, ümumi idarəetmə strukturu və müasir infrastruktur yaradılarsa, lazımi resurslarla təmin olunarsa, yeyinti sənayesinin inkişafına bu ərazilərin qatqısı danılmaz ola bilər.

**İstifadə olunmuş ədəbiyyat:**

1) Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, Bakı, 26.12.2014.

2) Azərbaycanın statistik göstəriciləri. Bakı, 2021. 752 s.

3) Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının inkişafına və emalına dair Strateji yol xəritəsi. Bakı, 06.12.2016.

4) Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Bakı, 2016. 266 s.

5) Azərbaycanın statistika göstəriciləri. Bakı, 2019, 788 s.

6) Azərbaycan sənayesi. Bakı, 2019, 252 s.

7) Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı, 2021, 772 s.

8) İbrahimov İ.H. Aqrar sahəsinin iqtisadiyyatı. Bakı, 2016, 655 s.

9) İbrahimov İ.H. Regionların və işğaldan azad edilmiş ərazilərinin inkişaf istiqamətləri. Bakı, 2022, 24 s.